N 118
25.10.2013

# Ə M R

Bakı şəhəri

**"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı"nın icrası haqqında"**

"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 24 iyun 2013-cü il tarixli 2966 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə

## ƏMR EDİRƏM:

1. "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planı" təsdiq edilsin (əlavə olunur).

2. Səhiyyə Nazirliyinin struktur bölmələrinin və qurumlarının rəhbərlərinə tapşırılsın ki, bu əmrin 1-ci bəndi ilə təsdiq edilmiş Tədbirlər Planının həyata keçirilməsini səlahiyyətləri daxilində təmin etsinlər.

3. Əmrin icrasına nəzarət Nazir müavinlərinə həvalə olunsun.

Əsli ilə düzdür

**Oqtay Şirəliyev**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin
25.10. 2013-cü il tarixli 118 nömrəli
əmri ilə təsdiq edilmişdir

**"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin**

## TƏDBİRLƏR PLANI

| Sıra №-si | Tədbirin adı | İcraçı təşkilatlar | İcra müddəti |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| | **I. (4.1.) Təşkilati tədbirlər** | | |
| 1.(4.1.2.) | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin və onlardan sui-istifadə hallarının qarşısının alınması ilə əlaqədar respublikanın digər aidiyyəti təşkilatları ilə qarşılıqlı əməkdaşlığının gücləndirilməsi | Respublika Narkoloji Mərkəzi (RNM), Məhkəmə-tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi(MTEvə PAB), QİÇS mərkəzi | 2013-2018 |
| 2.(4.1.5) | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının ilkin tədqiqatını və məhkəmə ekspertizasını aparan laboratoriyaların maddi-texniki təminatının yaxşılaşdırılması | MTE və PAB, RNM | 2013-2014 |
| 3.(4.1.7) | Aşkar edilmiş narkotik vasitələrin növünün, çəkisinin, tərkibinin operativ surətdə müəyyən edilməsi üçün müvafiq bölgələrdə laboratoriyalar təşkil edilməsi və onların müasir zəruri avadanlıqla təchiz olunması | MTE və PAB | 2014-2015 |
| 4.(4.1.8) | Narkotik vasitələrin və psixotrop maddələrin ekspertizası zamanı tərkibində aşkar edilən kənar qarışıqların da müayinəsinin aparılması və bu qarışıqlarda aşkar olunan maddələrin insanın sağlamlığına təsirinin tibbi cəhətdən qiymətləndirilməsi | MTE və PAB, RNM | mütəmadi |
| 5.(4.1.10) | Narkoloji müəssisələrin tibbi və texniki avadanlıqla, həmçinin ixtisaslı kadrlarla təmin edilməsi | Kadrlar,elm və təhsil şöbəsi (KETŞ), RNM | mütəmadi |
| 6.(4.1.13) | Məhkəmələr tərəfindən cəza tətbiqi zamanı | RNM | mütəmadi |

| | | | |
|---|---|---|---|
| | barəsində narkomaniyadan məcburi müalicə təyin edilmiş şəxslərin müalicəsinin səmərəliliyinin və effektivliyinin artırılması | | |
| 7.(4.1.17) | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanuni dövriyyəsi vəziyyətinin öyrənilməsi, yol verilmiş nöqsanların aradan qaldırılması və bu sahəyə ciddi nəzarətin təmin edilməsi | RNM | mütəmadi |
| 8.(4.1.20) | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığın yayılmasına qarşı mübarizə, həmçinin narkomanların reabilitasiyası sahəsində fəaliyyət göstərən mütəxəssislərin peşəkarlığının artırılması və təcrübə mübadiləsi məqsədi ilə keçirilən birgə seminarlar, praktik təlimlərdə iştirak etmək | RNM,<br><br>QİÇS mərkəzi | ildə 2 dəfə |
| 9.(4.1.22) | Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz hazırlanmasında istifadə oluna bilən prekursorları idxal, istehsal və istifadə edən müəssisə və elmi tədqiqat laboratoriyalarının müvafiq monitorinqinin aparılmassı | RNM | mütəmadi |
| **II. (4.2.) Qanunvericiliyin təkmilləşdirilməsi** | | | |
| 10.(4.2.1) | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsini tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflər verilməsi | HDNS, RNM | 2013-2016 |
| 11.(4.2.5) | İnzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş, narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslərin məcburi müalicəyə cəlb olunması barədə təkliflər verilməsi | HDNS, RNM | 2013 |
| 12.(4.2.7) | Narkomanlığa düçar olmuş şəxslərin müalicəsi, reabilitasiyası və resosializasiyası proqramlarının hazırlanması, bu proqramlar üzrə tədbirlərin geniş şəkildə həyata keçirilməsi mexanizminin yaradılması barədə təkliflər verilməsi | TYTŞ, RNM | 2013 |
| **III. (4.3.) Beynəlxalq tədbirlər** | | | |
| 13.(4.3.3) | Narkomanlığın yayılmasının qarşısının alınması istiqamətində uğurlu strategiyası | BƏŞ, TYTŞ, RNM | 2013-2018 |

| | | | |
|---|---|---|---|
| | olan dövlətlərin təcrübəsi ilə tanış olmaq məqsədi ilə belə dövlətlərlə əməkdaşlığın genişləndirilməsi | | |
| 14.(4.3.4) | Narkotik vasitələrin qeyri-tibbi qəbulunun profilaktikasının və reabilitasiya işinin səmərəli təşkili məqsədi ilə beynəlxalq təcrübənin öyrənilməsi, təlim materiallarının hazırlanması | İSİM, RNM | mütəmadi |
| 15.(4.3.7) | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin və narkomanlığın qarşısının alınmasına dair beynəlxalq konfranslarda, seminarlarda və digər tədbirlərdə aidiyyəti mütəxəssislərinin iştirakının təmin edilməsi | BƏŞ, TYTŞ, RNM, İSİM, QİÇS mərkəzi | mütəmadi |
| **4.4. Profilaktika, müalicə, reabilitasiya və maarifləndirmə üzrə tədbirlər** | | | |
| 16.(4.4.1) | Narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslərin vaxtında aşkar edilməsi, könüllülük prinsipi əsasında müalicəsi və sağlam həyat tərzinə qaytarılması işinin təşkilində tibb müəssisələrinin, ərazi polis qurumlarının qarşılıqlı əlaqələrinin genişləndirilməsi və təkmilləşdirilməsi | TYTŞ, RNM, Respublikanın şəhər, rayon səhiyyə idarə və müəssisələri | mütəmadi |
| 17.(4.4.2) | Narkotik vasitələrin qeyri-tibbi qəbulunun profilaktikası, belə şəxslərin müalicəsi və reabilitasiyası istiqamətində müvafiq işlərin görülməsi, həmçinin bu tədbirləri həyata keçirəcək mütəxəssislərin hazırlanması | TYTŞ, KETS, RNM, QİÇS mərkəzi | 2013-2018 |
| 18.(4.4.3) | Narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslərin müəyyən edilməsinə kömək məqsədilə təhsil, gənclər və idman təşkilatlarının əməkdaşları və valideynlər üçün metodik tövsiyələrin hazırlanması | İSİM, RNM, QİÇS mərkəzi | mütəmadi |
| 19.(4.4.4) | Narkomanlar, həmçinin İİV və digər viruslara yoluxanlar arasında tibbi-gigiyena, təbliğat və maarifləndirmə işinin gücləndirilməsi | İSİM, RNM, QİÇS mərkəzi , Respublika Gigiyena və Epidemiologiya Mərkəzi (RGEM), Respublikannın şəhər, rayon səhiyyə idarə və müəssisələri | mütəmadi |
| 20.(4.4.5) | Narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslər arasında aparılan profilaktik tədbirlərin | KETŞ, RNM, İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) | mütəmadi |

| | | | |
|---|---|---|---|
| | keyfiyyətinin və həmin tədbirləri icra edənlərin peşəkarlığının artırılması | | |
| 21.(4.4.6) | Narkomanlığın zərəri barədə metodik-tədris vəsaitlərinin hazırlanması və elmi tədqiqat işlərinin genişləndirilməsi | KETŞ, Azərbaycan Tibb Universiteti (ATU), Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu (ADHTİ), RNM, İSİM | mütəmadi |
| 22.(4.4.7) | Narkomanlıq xəstəliyindən azad olan insanların cəmiyyətə inteqrasiyasının təmin edilməsi | RNM, Respublikanın şəhər, rayon səhiyyə idarə və müəssisələri | mütəmadi |
| 23.(4.4.16) | Təhsil müəssisələrində təhsil işçiləri, məktəblilər və tələbələr arasında narkotiklərin insan orqanizminə məhvedici təsiri, törətdiyi sosial bəlalar, erkən müalicənin labüdlüyü, həmçinin narkomanlığın cəmiyyətə və insanların sağlamlığına ziyanı barədə təbliğat aparılması, o cümlədən bu barədə videofilmlərin nümayiş etdirilməsi | Mətbuat xidməti (MX), RNM, QİÇS mərkəzi, İSİM, Respublikanın şəhər, rayon səhiyyə idarə və müəssisələri | mütəmadi |
| 24.(4.4.19) | Narkomanlığın cəmiyyətə və insan sağlamlığına ziyanı, bu sahədə görülən tədbirlər və onların nəticələri barədə əhalinin mütəmadi olaraq məlumatlandırılması | MX, RNM, İSİM | mütəmadi |
| 25.(4.4.23) | Narkomanlıqla mübarizə sahəsində maarifləndirmə tədbirlərinin aparılması məqsədi ilə təlimçilərin hazırlanması | İSİM, RNM, QİÇS mərkəzi | 2013-2015 |
| 26.(4.4.27) | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində aparılan işlər və bu bəlaya düçar olmamağın yolları barədə internet səhifələrində (xüsusilə sosial şəbəkələrdə) təbliğat aparılması | MX, RNM, İSİM, QİÇS mərkəzi | mütəmadi |
| 27.(4.4.34) | Pedaqoqlar, tibb işçiləri, valideynlər və yetkinlik yaşına çatmayanlar üçün narkotik maddələrin qeyri-tibbi istehlakının profilaktikası üzrə yaddaş kitabçalarının, xəbərdarlıq vərəqələrinin və metodik materialların hazırlanması və paylanması | İSİM, RNM, QİÇS mərkəzi | mütəmadi |